# COP29 həm də Azərbaycanın dünyaya təqdimatı üçün növbəti platformadır



Erməni vandallarının Azərbaycan təbiətinə qarşı törətdiyi vəhşilik isə göz qabağındadır. Bunu göstərmək üçün nə bələdçi lazımdır, nə də şərh... Onlar işğal etdikləri ərazilərdə, sözün əsl mənasında, ekoloji terror törədiblər. Prezident İlham Əliyev bu vəhşilikləri ekosid - ətraf mühitə qarşı genosid adlandırıb.

Dövlətimizin başçısı Laçın rayonunda 22 min hektar, Kəlbəcər rayonunda 24 min hektar, Zəngilan və Qubadlı rayonlarında 12 min hektar meşə sahəsi, işğaldan azad edilmiş digər ərazilərdə də bu cür böyük sərvətimiz olduğunu dəfələrlə nəzərə çatdırıb, meşələrin planetimizin ağciyəri olduğunu qeyd edərək deyib: "Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb. Buna baxmayaraq, meşə sahələrimizin böyük hissəsi toxunulmaz qalıb, çünki düşmən o meşələrə dırmaşa bilməyib, o, ucqar dağ massivlərində yerləşir. Əlbəttə, dağıdılmış və məhv edilmiş infrastrukturun, o cümlədən kəsilmiş ağacların bərpası da diqqət mərkəzində olacaqdır".

Erməni qəsbkarları işğal altında saxladıqları dövrdə digər ərazilərdə olduğu kimi, Bəsitçay qoruğuna da böyük zərər yetiriblər. Burada vaxtilə 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Düşmən qoruğun meşəlik ərazisinin, demək olar ki, yarısını məhv edib, ağacların kökünü, oduncağını yandırıblar. Ümumiyyətlə, 60 min hektar meşəmiz məhv olunub.

Çaylarımız da işğal altında idi və düşmən bizi onlardan da məhrum etmişdi. Tərtər çayının suyundan faktiki olaraq istifadə etmək mümkün deyildi. Suqovuşan ermənilərin əlində olduğu üçün yayda suyu kəsirdilər, qışda isə buraxırdılar və bu, daşqınlara gətirib çıxarırdı. Ən böyük çaylarımızdan olan Həkəridən də istifadə edə bilmirdik. Bazarçay (Bərgüşad çayı), Lev çay, Zabux, Tutqun, Turqay, Bəsitçay, Qarqarçay, Quruçay, Köndələnçay... Bunların hamısını ermənilər vəhşicəsinə istismar edirdilər.

→ 7

AZERBAIJAN COP29 HOST

AZERBAIJAN COP29

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası

# COP29 həm də Azərbaycanın dünyaya təqdimatı üçün növbəti platformadır

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün əlverişli şərait yaradacaq. Tədbirin çoxsaylı iştirakçıları və qonaqları ölkəmizdə gedən quruculuq işlərini, ətraf mühitin mühafizəsinə göstərilən diqqəti, iqlim dəyişmələri ilə mübarizəni əyani görə biləcəklər.**



COP29-un bir önəmi də ondan ibarətdir ki, Ermənistanın Qarabağda və Şərqi Zəngəzurda 30 il ərzində törətdiyi ekoloji terror haqqında geniş bir auditoriyaya ətraflı məlumat vermək imkanımız olacaq. Dünyanın hər yerindən gəlmiş insanlar işğaldan azad olunmuş ərazilərimizdə erməni ekosidinin vurduğu zərbələrin nəticələrini aradan qaldırmaq üçün həyata keçirilən işləri də əyani görəcəklər.

Erməni vandallarının Azərbaycan təbiətinə qarşı törətdiyi vəhşilik isə göz qabağındadır. Bunu göstərmək üçün nə bələdçi lazımdır, nə də şərh... Onlar işğal etdikləri ərazilərdə, sözün əsl mənasında, ekoloji terror törədiblər. Prezident İlham Əliyev bu vəhşilikləri ekosid - ətraf mühitə qarşı genosid adlandırıb.

Mənfur düşmən uzun müddət meşələrimizi qırıb və talayıb, meyvə bağlarındakı ağacları kəsib, hətta son dövrdə tərk etməli olduğu rayonlarda yaşıllıqlara od vurub. İşğalçı öz xəyanətkar əlini çaylarımıza da uzadıb. Onların suyundan güc alan elektrik stansiyalarını darmadağın edib, avadanlığını söküb aparıb, binalarını dağıdıb.

Dövlətimizin başçısı Laçın rayonunda 22 min hektar, Kəlbəcər rayonunda 24 min hektar, Zəngilan və Qubadlı rayonlarında 12 min hektar meşə sahəsi, işğaldan azad edilmiş digər ərazilərdə də bu cür böyük sərvətimiz olduğunu dəfələrlə nəzərə çatdırıb, meşələrin planetimizin ağciyəri olduğunu qeyd edərək deyib: "Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb. Buna baxmayaraq, meşə sahələrimizin böyük hissəsi toxunulmaz qalıb, çünki düşmən o meşələrə dırmaşa bilməyib, o, ucqar dağ massivlərində yerləşir. Əlbəttə, dağıdılmış və məhv edilmiş infrastrukturun, o cümlədən kəsilmiş ağacların bərpası da diqqət mərkəzində olacaqdır".

Erməni qəsbkarları işğal altında saxladıqları dövrdə digər ərazilərdə olduğu kimi, Bəsitçay qoruğuna da böyük zərər yetiriblər. Burada vaxtilə 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Düşmən qoruğun meşəlik ərazisinin demək olar ki, yarısını məhv edib, ağacların kökünü, oduncağını yandırıblar. Ümumiyyətlə, 60 min hektar meşəmiz məhv olunub.

Çaylarımız da işğal altında idi və düşmən bizi onlardan da məhrum etmişdi. Tərtər çayının suyundan faktiki olaraq istifadə etmək mümkün deyildi. Suqovuşan ermənilərin əlində olduğu üçün yayda suyu kəsirdilər, qışda isə buraxırdılar və bu, daşqınlara gətirib çıxarırdı. Ən böyük çaylarımızdan olan Həkəridən də istifadə edə bilmirdik. Bazarçay (Bərgüşad çayı), Lev çay, Zabux, Tutqun, Turqay, Bəsitçay, Qarqarçay, Quruçay, Köndələnçay... Bunların hamısını ermənilər vəhşicəsinə istismar edirdilər.

Oxçuçayın böyük fəlakətindən isə indi bütün dünya xəbərdardır. İşğal etdikləri torpaqlarımızın təbii sərvətlərini gəlir mənbəyinə çevirən düşmən öz korrupsioner tərəfdaşları ilə birlikdə bizim bu gözəl, şəffaf sulu çayımıza qarşı da əsl ekosid törədib. Prezident İlham Əliyev bu məsələnin üzərinə dəfələrlə qayıtmışdır: "Məsələni qaldıranda bizə söz verildi ki, bu fəlakəti törədən şirkət gəlib bunu təmizləyəcək. Amma artıq bundan bir il vaxt keçib, bizə heç bir təklif verilmir. Oxçuçayı zibilləyən, zəhərləyən "Cronimet" şirkətidir. Bu, böyük şirkətdir və bəzi xarici mətbu orqanlarında gedən məlumatlara görə, korrupsiya sxemləri əsasında Serjik Sarkisyanın keçmiş xunta rejiminin nümayəndələri ilə bunların qanunsuz biznes əlaqələri olub və onlar birlikdə orada o mis kombinatını işlədiblər. Ondan sonra Ermənistan hökuməti korrupsiyalaşmış həmin o erməni nümayəndələrindən bu kombinatın payını alıbdır. Ancaq bu fəlakəti törədən "Cronimet" şirkəti buna cavab verməlidir, yoxsa yox? Mən demişəm ki, beynəlxalq məhkəmələrdə məsələ qaldırılmalıdır. İndi mən çox şey demək istəmirəm, biz artıq hüquqi iddia ilə də çıxış edəcəyik, hazırlıq işləri gedir, beynəlxalq mütəxəssislər cəlb olunub. Biz ermənilərin törətdikləri vəhşiliklərə görə bütün dünyada ifşa edəcəyik. O cümlədən xarici şirkətləri, hansılar ki, bizim təbii yataqlarımızı istismar ediblər. Qızıl yataqlarımızı, digər yataqlarımızı qanunsuz istismar edən xarici şirkətlər hesab edirlər ki, bizdən yaxa qurtaracaqlar? Yox! Biz onları məhkəməyə gətirəcəyik, onları biabır edəcəyik. Oxçuçay suyunu sarı rəngə boyayan "Cronimet" şirkəti gəlsin o zibilini təmizləsin. Yoxsa hesab edirlər ki, vaxt keçdi və biz hər şeyi unutduq. Biz heç nəyi unutmamışıq və unutmayacağıq".

Ermənilər 44 günlük Vətən müharibəsi zamanı Şuşadan qaçarkən növbəti vəhşiliklərini törədib və su xətlərini də partladıblar. İşğal dövründə isə 17 bulağın 17-sini də yararsız vəziyyətə salıb, qurudublar. Əslində, bu vəhşilikləri ilə bir daha göstəriblər ki, Şuşa heç vaxt onların şəhəri olmayıb. İşğal zamanı düşmən çoxsaylı su anbarlarımıza da zərbə endirib.

Ermənilər bir zamanlar bütün keçmiş SSRİ məkanında tanınan Kəlbəcərdəki sanatoriyanın binalarını uçurmaqla yanaşı, buradakı su mənbələrini də tamamilə dağıdıblar. İndi burada müvafiq infrastrukturun yaradılması, yolların çəkilməsi, müalicəvi içməli suyun istehsalına başlanması kimi məsələlər qarşıda dayanır. Ümumiyyətlə, Qarabağda və Şərqi Zəngəzurda içməli su problemləri həll olunur. Prezidentimiz bildirib ki, azad edilmiş torpaqların, xüsusilə Kəlbəcər, Laçın, Qubadlının relyefi oradan həm suvarma suyunun, həm içməli suyun öz axarı ilə gəlib Ağdama, Bərdəyə və digər yerlərə çatmasına imkan verə bilər. Bu, ümumi suvarma sistemimizə inteqrasiya olunmalıdır. Eyni zamanda biz çaylarımızdan içməli su mənbəyi kimi istifadə etməliyik.

Əslində, Qarabağın və Şərqi Zəngəzurun təbiətinə vurulmuş yaraları sağaldan davamlı tədbirlər qələbədən dərhal sonra həyata keçirilməyə başlanıb. Onlardan yalnız bir neçəsini xatırladaq. Dövlət başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan rayonundakı Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisində çinar ağacları əkiblər.

İşğaldan azad edilmiş ərazilərdə ilk turizm obyektinin - Suqovuşan turizm kompleksinin yaradılmasına başlanıb. Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməli qoyulub. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan burada ağac əkiblər, əraziyə ceyranlar buraxıblar.

Bu ərazilərdə fauna növlərinin - ceyran, bezoar keçisi, Dağıstan turu və nəcib maralın, balıq və yırtıcı quş növlərinin öz tarixi areallarına reintroduksiyası nəzərdə tutulub. Balıq növlərinin populyasiyasının bərpası üçün davamlı işlər görülür. Bəsitçay, Həkəri və Bərgüşad çaylarının hövzələrinə balıq körpələrinin buraxılışı təşkil olunub və bu işlər növbəti illərdə də həyata keçiriləcək.

İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı yaşıllaşdırma işləri aparılıb, çoxsaylı ağacəkmə kampaniyaları keçirilir. Bu qəbildən olan tədbirlərin siyahısını xeyli uzatmaq da mümkündür.

Dünya ictimaiyyəti bütün bunları görməli və bilməlidir. Bu baxımdan COP29 bizim üçün bir şansdır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***